**Ayrı-ayrı şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə doğulsalar da, hamısının həyat hekayəsi eyni sonluqla bitdi şəhidlərin. Hər birinin ayrıca həyat hekayəsi olsa da, son nəticədə hər biri Vətən, torpaq uğrunda canını fəda etdi. Canlarından əziz bildilər Vətəni. Anaları bir ömrü boyu onları gözləyə bilər, amma yağıların işğal etdiyi Vətən torpağı oğulların evlərində oturmalarını gözləyə bilməzdi.**

# Yaralı vəziyyətdə döyüşü davam etdirirdi - Neftçala şəhidi Vasif...

***Gülhəsən Mehbalıyev:** "Tabeliyində olan yaralı əsgərini güllə yağışları altından çıxarmaq istəyib, elə bu zaman düşmən gülləsinə tuş gəlib"*



*"Vasif altı bacının tək qardaşı, ocağımın çırağını yandıranım idi"*

*Vətən çağırdı getdim,*
*Torpağımı qaytardım.*
*Anam gözləsin məni*
*Bəlkə bir gün qayıtdım.*

Şəhid oğullar Vətənin müdafiəsinə gedəndə "ata, ana, mütləq qayıdacağam" deyiblər, amma necə qayıdırlar? Yuxulara, xəyallara...Torpaq aldığı kimi geri qaytarıb ki...

Vətənin səsinə səs verən oğullarımızdan biri də Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) giziri Vasif Gülhəsən oğlu Mehbalıyevdir.

44 günlük Vətən müharibəsində düşmən qarşısında mətanətlə dayanan oğul olub Vasif. 26 yaşı vardı şəhid olanda. 26 bahar görmüşdü igid Vasif.

Vasif Mehbalıyevin atası Gülhəsən Mehbalıyevlə Biləsuvarda yaradıcılıq ezamiyyətində olarkən görüşüb söhbətləşdik. Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə "44 Gün-Tarixi zəfər" adlı IV cildliyinin III və IV cidlərinin Biləsuvarda keçirilən təqdimat mərasimində Gülhəsən dayı da iştirak edirdi.

Səsi titrək, qəlbi kövrək ata danışdıqca haldan-hala düşür, "oğlum haqda çox şey danışa bilərəm" deyir, amma duruxur, üzünü kədər bürüyür. Ata bilmir ki, nədən başlasın, oğlu haqda nə desin, nə danışsın. Danışmağa sözü, xatirəsi çoxdur, amma onları ipə-sapa düzmək çətindir ona. Şəhid ataları, şəhid anaları övladları haqda danışmağa həmişə çətinlik çəkirlər nədənsə. Bəlkə onların yoxluğuna inana bilmirlər...

Gülhəsən Mehbalıyev deyir ki, düşmən təxribatlarının qarşısını almaq üçün sentyabrın 27-də bütün cəbhə boyu başlanan əks-hücum əməliyyatında Vasif də silahdaşları ilə birlikdə ön sırada olub: "Oğlum xüsusi təyinatlı idi. Torpaqlarımızın işğaldan azad olunması ən böyük arzusu idi. Gün gəlib çatdı, o öz arzusuna çatdı (qəhərlənir)".

Vasif Mehbalıyev 1994-ci il martın 26-da Neftçala rayonunun Aşağı Surra kəndində anadan olub.

Gülhəsən dayı dedi ki, Neftçala rayonunun Aşağı Surra kəndində yaşasalar da, əslən Lerik rayonunun Livədirqə kəndindəndirlər. "Orta məktəbi bitirəndən sonra sənədlərini ali məktəbə verdi, amma müsabiqədən keçə bilmədi. Həqiqi hərbi xidmətə getdi. Hərbi xidmətdən sonra öz istəyi ilə müddətdən artıq xidməti vəzifəsinə başladı.

Hərbini çox sevirdi..."

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Vasif Mehbalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. "Füzulinin kəndlərinin azad edilməsi uğrunda düşmənə sarsıdıcı zərbələr vurub, onların zirehli texnikalarını məhv edib. Qolundan yaralanmasına baxmayaraq, döyüşü davam etdirib. Qətiyyən geri çəkilməyib, döyüşüb".

Ata bildirir ki, oktyabrın 15-də Füzulinin yaşayış məntəqələri uğrunda gedən qanlı döyüşlərdə Vasif şəhidliyə qovuşub. "Vasif döyüş zamanı tabeliyində olan yaralı əsgərini güllə yağışları altından çıxarmaq istəyib, elə bu zaman düşmən gülləsinə tuş gəlib. Oğlum yaralı əsgərini xilas edərkən canını fəda edib" deyir ata. Gülhəsən dayı bildirir ki, Vasif heç zaman əsgərini elə ağır vəziyyətdə qoymazdı, canı bahasına da olsa onu xilas edərdi, necə ki, onun üçün canını ortaya qoyub.

Ata deyir oğlunun şəhid olmasından əvvəlcə xəbəri olmayıb, bu müsibəti sonra bilib: "Şəhid olduğunu bilmirdim. Oğlumun şəhadətə yüksəldiyini eşidəndə qızlarımdan biri qardaş itkisinə dözə bilməyərək dünyasını dəyişdi.

Altı qızım bir oğlum vardı. Vasif altı bacının tək qardaşı, ocağımın çırağını yandıranım idi...

Bir bacısının da ürəyi partladı. Eşitdi ki, qardaşı şəhid olub. Tabut gəlməmiş uşağın ürəyi partladı öldü. Vasifi gətirəndə yarı yolda gözləyiblər ki, bu tabut çıxsın, o birini gətirsinlər. İki övlad acısını birdən yaşadım".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Vasif Mehbalıyev ölümündən sonra bir sıra orden və medallarla təltif edilib.

Bunlar "Azərbaycan Bayrağı ordeni", "Vətən müharibəsi iştirakçısı" medalı, "Kəlbəcərin azad edilməsinə görə" medalı, "Cəbrayılın azad edilməsinə görə" medalı, "Xocavəndin azad edilməsinə görə" medalı, "Füzulinin azad edilməsinə görə" medalı, "Şücaətə görə" medalıdır.

Mehbalıyevlər ailəsində bir gündə iki faciə yaşanıb, bu acını ürəklərə sığışdırmaq doğrudan da çətindir…Çiyinlərinə ağır yük, ürəklərinə bala dağı çəkilib Gülhəsən ata ilə Fəridə ananın. Həm oğul dağı görüblər, həm də qız dağı.

Vasif kimi igid, cəsur, vətənpərvər oğul yetişdirib Vətənə fəda edən qəhrəman ataanaya böyük alqış düşür. Mehbalıyevlər ailəsinin Vasif adlı çırağı sönsə də, onlar oğullarının xatirəsinin işığında həyatlarını davam etdirirlər. Üzləri gülmür, gözləri ağlayır, ürəkləri qubar bağlayır, amma dözürlər, dözürlər ki, arzuları yarımçıq qalan nakam balalarının izlərini yaşatsınlar. Bu gün Aşağı Surra kəndi Vasif kimi igid oğlu ilə fəxr edir. Vasif bütün xalqımızın qürur yeri olan oğullardandır.

Qorxmadı düşməndən, güllə yağışından, vətən üçün öldü Vətən üçün doğulan Vasif Mehbalıyev…Ata-anası Vasifin toyunu gözlədi, amma vayını tutdular…Təsəlliləri oğullarının qəhrəmancasına şəhid olmasıdır…

*Bir oğul böyütdü Fəridə ana*
*İgidlər içində boyu var idi.*
*Şəhid çərgəsinə qoşuldu getdi-*
*Arzusu çox idi igid Vasifin*
*Hələ çalınmamış toyu var idi…*

***İradə SARIYEVA***
***Biləsuvar-Bakı***